*Həsənzadə Tahirə. Qarabağ mövzusu qacarlar tarixində*
*//Elmi əsərlər,2022, 2(15),iyul-dekabr,s.30-33.*

**TARİX**

UOT: 94(479.24)

**Tahirə Həsənzadə,**
*tarix üzrə elmlər doktoru*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş., İstiqlaliyyət küç. 26*

# QARABAĞ MÖVZUSU QACARLAR TARİXİNDƏ
## "Şuşanı geri alıb, orada musiqi ocağı qurmaq istəyirəm."

**Açar sözlər:** *Qarabağ, Şuşa, Abbas Mirzə Qacar, Fətəli şah, musiqi ocağı*

Bu sözlər, bu arzu Azərbaycan sərkərdəsinə, son nəfəsində "Azərbaycan, Azərbaycan" söyləyən Abbas Mirzə Naibüssəltənə Qacara məxsusdur. Azərbaycan sevgisi Fətəli şahın oğlu Abbas Mirzəni heç vaxt tərk etməmişdir. Tarixdən məlumdur ki, Azərbaycan hökmdarı Ağa Məhəmməd şah Qacarın varisi olmadığı üçün, o, vaxtilə qardaşı Hüseynqulu xan Cahansuzun oğlu Baba xanı (Fətəli şah) özünün vəliəhdi təyin etmişdir.

Abbas Mirzə 1804-cü ilin yayında Fətəli şahla birlikdə Qarabağa gəlmiş, bu yerlərin sakitliyini çox dəyərləndirmişdi. O, gecələr əsgər postlarına baş çəkir, sonra fürsət taparaq Fətəli şahla orduda islahatlar aparmaq barədə söhbət edərək, onun fikrini öyrənməyə çalışırdı. Tehranda bu fürsət əlinə düşmürdü. Daha doğrusu, Şahın ətrafında dolaşan qatı dindarlar, ona rəqib olan qardaşları buna imkan vermirdilər. Onlar bütün Azərbaycanı az qala ölkəni öz nüfuz və təsiri altına almış Abbas Mirzənin şəxsiyyətini hər vasitə ilə nüfuzdan salmağa çalışırdılar.

Abbas Mirzənin Qarabağda keçirdiyi günlərini, daim yanında olan oğlu, onun bütün döyüş yolunu əks etdirən "Tarixe-nou" (Yeni tarix) kitabının müəllifi Cahangir Mirzə ətraflı təsvir etmiş, onun bu torpağa olan məhəbbətini bu sözlərdə qələmə almışdır. Cahangir Mirzə yazır: "... hansısa bir nəğməyə, bir kənd evindən və ya bir tarladan gələn şərqilərə xüsusi bir zövqlə qulaq asırdı. Bir gün yanında olanlara demişdi: "Şuşanı geri alıb, orada yerləşdikdən sonra bir musiqi ocağı qurmaq istəyirəm". Bu vaxt Şuşa, Qarabağ Rusiyanın işğalı altında idi.

Abbas Mirzə ömrünün çox illərini, 1831-ci llədək Azərbaycan hakimi oldu. 1831-ci ildə bu diyardan ayrıldıqdan, Xorasan valisi təyin edildikdən (düşmənlərinin təkidi, Fətəli şahın fərmanı ilə) sonra çox keçmədən, 2 ildən sonra, 1833-cü ildə "Azərbaycan, Azərbaycan" deyərək gözlərini yummuş, həyatla vidalaşmışdır.

Qacarlar dövrünün görkəmli tarixçi-coğrafiyaşünas alimi Ağa Məhəmməd şah Qacarın Mustafaqulu xan adlı qardaşının nəvəsi marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə də özünün dördcildlik "Miratül-buldani-Nasiri" əsərində Azərbaycanın Qarabağ bölgəsinin şəhərləri haqqında qədim, orta əsr mənbələrində öz əksini tapmış məlumatları diqqətə çatdırır. Onun Ptolomey (87-165), İbn Xordadbeh (820-912), Həmzə ibn Kəlanisi (XII əsr) və başqa müəlliflərin verdikləri məlumata istinad edərək, Qarabağ şəhərlərindən Bərdə, Bərdic, Beyləqan və Şuşa barədə verdiyi məlumat bu qəbildəndir.

Etimadüssəltənə Qərbin və İranın burjua tarixçilərindən fərqli olaraq e.ə. 328, eramızın 30-cu illərində mövcud olmuş Atropatena dövlətinin müstəqil şahlıq olduğunu göstərmişdir. Bu fikirlər onun "Dürər-üt-tican fi tarixi-bəni-əl-əşkan" (Əşkanilər tarixində dürrlər toplusu) əsərində öz əksini tapmışdır.

Məhəmmədhəsən xan yazır:

**Bərdic** Azərbaycan torpağının hüdudunda, Bərdədən on dörd fərsəx aralı yerləşən şəhərdir. Böyüklükdə Dəclə çayı kimi olan Kür çayı bu şəhəri əhatə edir.

O cümlədən, Bərzənc Arranda şəhərdir. Bərdədən on səkkiz fərsəx aralı olub, Bab əl-Əbvaba gedən yolun üstündədir. Bərzəncdə Kür çayının bir körpüsü vardır ki, oradan keçib, Şamaxıya gedirlər. XIV əsrdə Həmdullah Qəzvini Bərzəncin kiçik bir kənd kimi qaldığını yazırdı. Ərəb coğrafiyaşünas-səyyahı Əbülqasım Beydullah ibn Abdullah ibn Xordadbeh "Kitab əl-məsalik vəl-məmalik" əsərində Bərdic şəhərinin adını çəkir və göstərir ki, şəhər Bərdədən on səkkiz fərsəx aralıdır. V.F.Minorskinin fikrincə, əl-İstəxri ibn Hövqəl və əl-Müqəddəsin işlətdikləri Bərzənc əvəzinə Bərdic işlədilməlidir.

Bəlkə də "Miratül-buldani-Nasiri" əsərində göstərildiyi kimi, Bərzənc ilə Bərdic Bərdədən müxtəlif məsafədə (Minorski bu iki məntəqənin arasındakı məsafəni bir-birindən 18 fərsəx deyil, 4-6 fərsəx qəbul edir.) olduğundan başqa-başqa şəhərlərdir və Minorskinin dediyi kimi eyni şəhər olmamışdır. Məhəmmədhəsən xan Etimadüssəltənə yazır: "**Beyləqan** Şirvana yaxın şəhərdir. Əhalisi Arran tayfalarından hesab olunur. Şəhərin əsasını Qubad Sasaninin qoyduğunu söyləyirlər. Bəziləri isə şəhəri Beyləqan bin Urmi bin Lənti bin Yunanın adı ilə bağlayırlar.

Əhməd bin Yəhya bin Cabir yazır: Üçüncü xəlifənin (Osman ibn Affan – T.H.) dövründə Salman ibn Rəbiə Bahilinin ordusu Arrana gəlmiş və Beyləqan əhalisi onun sülhlə təslim olmaq təklifinə təmkinlə razı olmuşdular və Salman onlara aman verib, əhalini xərac verməyə razı salmışdı. Oradan Bərdəni istila etmək üçün yola düşmüşdü. Amma Əhməd bu hadisənin neçənci ildə baş verdiyini yazmır. 619-cu ildə (1222-ci il) moğol qoşunları Beyləqana gəlib şəhəri zəbt etdilər, əhalini qırıb şəhəri qarət etdikdən sonra od vurub yandırdılar. Əhalinin çoxu bu bədbəxtçilikdən qurtulmaq üçün ətraf yerlərə qaçdı. Moğol qoşunları getdikdən sonra əhali yenidən oraya cəm oldu və indi həmin şəhər əvvəlki vəziyyətindədir, abaddır və əhalisi çoxdur.

Həmdullah Mustofi yazır: Beyləqan 5-ci iqlimdəndir. İndi dağılmışdır, əksər imarətləri bişmiş kərpicdəndir, havası istidir, məhsulu arpa, buğda, pambıq, çəltik və başqa yaxşı dənli bitkilərdir."

Müəllif (Məhəmmədhəsən xan – T.H.) daha sonra yazır: "Həkim Xaqaninin şagirdi, məşhur şairlərdən olan Mücir Beyləqani bu şəhərdəndir".

Qeyd etmək lazımdır ki, Bərdənin cənubunda, onun dörd fərsəxliyində yerləşmiş bu qədim Beyləqan şəhəri əvvəllər Paytakaran adlanmış və Azərbaycanın qədim xəritəsində bu adla görünür. Ələkbər Dehxuda "Lüğətnamə"də yazır ki, Arazdan 7 fərsəx şimalda olan bu şəhər Cənubi Azərbaycan şəhəri Bərzənd yolunun üstündədir və IX əsrdə mühüm şəhər hesab olunurdu.

Moğollar Beyləqanı Məhəmmədhəsən xanın göstərdiyi kimi, h.q. 619-cu (1222-ci) ildə deyil, 617-ci il (1221-ci) ildə işğal etmişlər.

**Biləsuvar**. Məhəmmədhəsən xan Etimadüssəltənə Arran şəhəri olan Biləsuvar haqqında yazır: Biləsuvar Arran torpağında şəhərdir. Ali Buveyh əmirlərindən olan Biləsuvar adlı bir şəxs bu şəhərin əsasını qoymuşdur və indi bir kənd kimi qalıb. Suyu Macərvan çayındandır. Məhsulu arpa-buğdadır. (Biləsuvarın mənası – süvari-bozorq – yəni, böyük atlı deməkdir.)

**Bərdə** indiki dövrün istilahına görə Şuşa qalası kimi Qarabağın bir qəzasıdır. Əbu Səhl nəql edir ki, Bərdə Azərbaycan torpağının hüdudunda yerləşən şəhərdir. Həmzə ibn əl-Kəlanisi (XII əsr) deyir: Bərdə ərəblərdə bərdedar deməkdir. Yəni, fars dilində bu sözün mənası kölə, qul saxlanan yer deməkdir. Hilal ibn Məhsun deyir ki, Bərdə Azərbaycanda hökumət iqamətgahıdır. İbn əl-Fəqih deyir: Bərdə Arran şəhəridir və Azərbaycanın hüdudunda yerləşir. Şəhəri ilk abad edən Qubad olmuşdur (488–531) və bu şəhər düzənlikdə

yerləşmişdir. Onun imarətləri bişmiş kərpic və əhənglə (gips) tikilmişdir. İbn Fəqih Bərdəni Arran şəhəri hesab etməkdə yanılmışdır.

"Məlhəmə" kitabının müəllifi deyir: Bərdə 79 dərəcə və 30 qəqiqə uzunluq dairəsində, 45 dərəcə en dairəsində və altıncı iqlimdəndir. (Kitabın müəllifi Ptolomey (87–165) "Məlhəmə" (Coğrafi təlimnamə) adlı əsərinin V kitabının 11-ci fəslində Qafqaz Albaniyasının coğrafi mövqeyi, çayları, yaşayış məntəqələri və s. Haqqında məlumatlar verir.) İbn Əvin öz təqvimində yazır ki, Bərdə beşinci iqlimdəndir və 74 dərəcə uzunluq dairəsində, 43 dərəcə en dairəsindədir.

**Şuşa** Qafqazın İrəvan, Naxçıvan, Gəncə və başqa şəhərlərindən daha abaddır, daha yaxşıdır. Adları çəkilən şəhərlərin evləri kiçik və bir-birinə bənzəməyən, küçələri dar və sıxdır. Şuşa şəhərində isə binalar hündür və səfalıdır, əksər evlər daşdan tikilmişdir, küçələri enli daşla döşənmişdir. Evlərin damları taxtadandır. Şuşada yaşayan tatarların və müsəlmanların evləri Avropasayağıdır.

Qarabağın bazarlarında hər cür mətah tapılar, çox yaxşı hamamları vardır. Şəhərdə çoxlu mədrəsələr bina edilmişdir. Tatar (azərbaycanlı – T.H.) uşaqlarının mədrəsələri məscidlərin yaxınlığındadır. Şuşada olan qədim imarətlərdən biri, Gəncəyə gedən yolda şəhər qapısının yaxınlığında olan uçulmuş bina Şuşanın sabiq valisi Mehdiqulu xanın qızlarından birinə məxsus olmuşdur.

Qarabağın yaxşı atları dünyada məşhurdur. Bu əla atların cinsi Nadir şahın ilxısındandır. Belə ki, Nadir şah qətlə yetirildikdən sonra Pənah xan Cavanşir Nadir şahın ilxısını ələ keçirmişdir.

Xaçmaz adı ilə məşhur olan qırmızı rəngli ipək parçalar Qarabağda toxunur.

Pənah xan Nadir şahın müasiri idi və ona xərac verirdi. Şişə, yaxud Şuşa qalası Pənah xanın binalarındandır. Onun vəfatından sonra oğlu İbrahim xan atasının yerinə hakimiyyətə gəldi. 1794-cü il, hicri 1209-cu ildə İbrahim xan saraya (Ağa Məhəmməd şah Qacara – T.H.) xərac göndərməkdən boyun qaçırdı. Böyük hökmdar onu cəzalandırmaq üçün Qarabağa qoşun çəkib, uzun müddət mühasirədə saxladı. Lakin qarşısına Tiflisi almaq məqsədi qoyduğundan qoşunları Şuşa ətrafından geri çağıraraq Tiflisə getdi və şəhəri aldı.

Şah 1796-cı məsihi, 1211-ci hicri ilində yenidən Şuşa qalasına girməyi qərara aldı. İbrahim xan o şahın hücumundan qorxaraq dağlara qaçdı və Şişə qalası İran padşahının əsgərləri tərəfindən tutuldu. Tarixdən yazılmış bu hadisədən sonra İrana bədbəxtlik üz verdi. Padşah şəhid oldu. O vaxt hakimiyyətdən uzaqlaşmış İbrahim xan yenidən öz iqamətgahına qayıtdı. Lakin dostlara etibar olmadığından Rus dövlətinə yaxınlaşdı. Bir qədər keçdikdən sonra peşiman oldu, islami qeyrət hissi baş qaldırdığından mərhum Xaqanın (Fətəli şahın – T.H.) sarayına hədiyyələr göndərdi və bağışlanmasını xahiş etdi. Onun xahişi qəbul olundu və əfv edildi.

Əmir Teymur Gürgan Qarabağın havasına və təbiətinə mail olmuşdu.

Qarabağ bütün türk fatehlərinin yay istirahət məkanı olmuşdur.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. Cild 4 (XIX əsr). Bakı: Elm, 2007, 508 s.
2. Bamdad M. Tarixi-ricali-İran. Cild 2 /Mehdi Bamdad. Tehran, 1966, 585 s.- (Fars dilində).
3. Pakrəvan Ə. Abbas Mirzə və Azərbaycan. Farscadan çevirən: Güntay Cavanşir / Əminə Pakrəvan. Bakı: Qanun, 2007, 204 s.

4. Həsənzadə T. Abbas Mirzə Qacarın böyük Azərbaycan sevgisi /Tahirə Həsənzadə //AMEA Xəbərlər (tarix, fəlsəfə və hüquq seriyası), 2008. S. 155-163.
5. Tahirə Həsənzadə. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri. Bakı: 2021, 224 səh.

***Тахира Гасанзаде***

## КАРАБАХСКАЯ ТЕМА В ИСТОРИИ ГАДЖАРОВ

### Резюме

В статье говорится о большой любви Аббаса Мирзы Найбуссалтана к Азербайджану. Выясняется, что он хотел создать в Шуше музыкальный центр. В произведении видного историка Гаджарского периода XIX века Этимадус-Салтане «Миратул-булдани-Насири» содержатся сведения об очаровательных уголках Карабаха, таких как Барда, Бейлаган, Шуша.

**Ключевые слова***: Карабах, Шуша, Аббас Мирза Каджар, Фатали шах, музыкальный центр*

***Takhira Qasanzadeh***

## THE KARABAKH THEME IN THE HISTORY OF THE GAJARS

### Summary

The article talks about Abbas Mirza Naibussaltane's great love for Azerbaijan. It is displayed he wanted to create a music center in Shusha. Etimadussaltane's work, a prominent historian of the 19th century Ghajar period, "Miratul-buldani-Nasiri" contains information about the charming corners of Karabakh, such as Barda, Beylagan, Shusha.

**Key words:** *Karabakh, Shusha, Abbas Mirza Gajar, Fataly shah, music center*

*Redaksiyaya daxil olma tarixi: 11.10.2022*
*Çapa qəbul olunma tarixi: 24.11.2022*

*Filologiya üzrə elmlər doktoru, dosent Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur*